**UOT02.41**

***Eldar Şahgəldiyev***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***
***Xəzər Universitetiti***
***AZ 1096, Bakı, Məhsəti Gəncəvi 41***
***E-mail:* contact@khazar.org**

# SİVİLİZASİYA VƏ MƏDƏNİYYƏT, ONLARIN QARŞILIQLI ƏLAQƏSİ

**Xülasə**: Məqalə mədəniyyətin anlayış aparatı və onun yaranma tarixi, növləri, spesifik xüsusiyyətləri və sivilizasiya ilə qarşılıqlı əlaqələrinin tarixinə dair müxtəlif yanaşmaların tədqiqinə həsr olunmuşdur. Müəllif qeyd edir ki, mədəniyyət və sivilizasiya öz formalarına, funksiyalarına və qloballığına görə bir-birindən fərqli anlayışlar olsa da onları birləşdirən ümumi cəhət-insan fəaliyyəti ilə sıx əlaqədardır.
Nəticədə əsas hissələrdə verilən müddəalar ümumiləşdirilmişdir.

**Açar sözlər:**Mədəniyyət, mədəniyyətin mahiyyəti, maddi mədəniyyət, mənəvi mədəniyyət, mədəniyyətin xüsusiyyətləri, sivilizasiya, mədəniyyət və sivilizasiyanın qarşılıqlı əlaqəsi

## GİRİŞ.

Ölkəmizdə elm və texnologiyanın inkişaf etdirilməsi, elmi-mədəni və innovativ yeniliklərin istehsala yol açması Azərbaycanın müstəqillik illərində xüsusi vüsət almışdır. Müstəqillik elə bir fenomendir ki, o, qlobal sosial-siyasi proseslərə qoşulmaqla yanaşı öz milli mədəni düşüncə və təfəkkürünün olmasını, milli varlığın qorunub saxlanmasını tələb edir. Bu mənada, humanitar elmlərdən tələb edilir ki, azərbaycançılıq məfkurəsi və mədəniyyəti bütün vasitələrlə inkişaf etdirilsin və qarşıya qoyulan problemlər məhz azərbaycançılıq fəlsəfəsi mövqeyindən təhlil olunsun. Bu mə'nada XXI əsrin «zəka əsri» olacağını zənn edənlər yanılmırlar. Belə bir şəraitdə mədəniyyət və sivilizasiya problemlərinin öyrənilməsi, onun bütün insanlarındəyərlər sisteminə çevrilməsi yenicə müstəqillik qazanmış xalqımız və onun gənc nəsli üçün böyük əhəmiyyət kəsb edir. Əsrin zəkası və mentaliteti öz ifadəsini mədəniyyətdə tapır.

Alman filosofu Hegel göstərmişdir ki, xalqların müdrikliyini öyrənməyin yeganə açarı mədəniyyətin əlindədir. Başqa sözlə desək, mədəniyyət-bəşəriyyət tərəfindən yaradılmış ikinci bir dünyadır. Onun nəhəng binasını insanlar əsrlərdən bəri tikib qurmaqdadırlar. Mədəniyyətin yaranması və inkişafı bəşər cəmiyyətinin təşəkkül tapması və təkamülü ilə sıx bağlıdır. Bu mənada, mədəniyyətşünaslıq həm də fəlsəfənin öyrəndiyi problemlər içərisində ən mühüm anlayışlardan biridir və onun sivilizasiya ilə çox mühüm bağlılığı vardır.

"Mədəniyyət" və "sivilizasiyanın" sözləri bəzən sinonimlər kimi istifadə edilir. “Təbiət" bəşəriyyətin qida, geyim, rabitə və sair kimi ehtiyaclarını ödəməyə və insnaların həyat tərzinin yaxşılaşdırılmasına xidmət edir. Tarixdə bəzi qruplar özlərini mədəni hesab edərək, digərlərinə barbarlar kimi baxmışlar. Bu hal insanlar arasında kütləvi qırğınlara səbəb olan müharibələrə və soyqırımlara gətirib çıxarmışdı. Buna görə sivilizasiyanın özü həyatın məqsədi ola bilməz.

Digər tərəfdən, 'daxili mədəniyyət' insanlara aid edilmiş, insan beynininin sağlamlıöını və ürəyin incəliyini nəzərdə tutmuşdur.

**MƏDƏNİYYƏT ANLAYIŞI VƏ ONUN TARİXİNƏ DAİR**

Filosoflar və mütəfəkkirlər hələ lap qədim zamanlardan başlayaraq mədəniyyət problemləri ilə məşğul olmuş, müxtəlif mövqelərdən olsa da ona öz münasibətlərini bildirmişlər. Ona görə də mədəniyyət anlayışı müxtəlif dövrlərdə müxtəlif mənalar, çalarlar kəsb etmişdi. Məsələn, mədəniyyət istilahı özünün ilk, ən’ənəvi anlamında (latın dilində «culture») torpağı şumlamaq, belləmək, əkib-becərmək mə’nalarını ifadə etmişdir. Lakin sonralar romalılar ona yeni bir mə’na verməklə insanların intellektual səviyyəsinə, onların təhsil və tərbiyəsinə şamil etmişlər. Mark Tuli Siseron bu istilahı insanların əqli fəaliyyəti ilə bağlamışdır. Rus dilində də «kultura» istilahı əvvəllər əqli və mə’nəvi kamilləşməni bildirən bir anlayış kimi işlədilmişdir. İllər keçdikcə bu istilah uzun və mürəkkəb bir yol keçərək müxtəlif mə’nalar kəsb etmişdir. Orta əsrlərdə Qədim Şərq və eləcədə İslam Şərqi ölkələrində yüksələn mədəniyyət Avropaya hərtərəfli tə’sir göstərmişdir. Ona görə də təbii ki, Islam Şərqi ölkələrində ərəb dilindən götürülmüş «mədəniyyət» istilahı özünün çoxşaxəliliyi baxımından Avropada işlədilən «culture» termininin də müxtəlif mə’nalar daşımasına müəyyən tə’sir göstərmişdir. İslam Şərqində işlədilən «mədəniyyət» istilahı öz əhatə dairəsinə görə daha geniş olub insanların və xalqların fiziki və əqli fəaliyyətlərinin demək olar ki, bütün sahələrini özündə ehtiva edirdi. Qədim Şərqdə, eləcə də Orta Əsrlər İslam Şərqində yaranan fəlsəfi, siyasi və bədii nümunələrdə «mədəniyyət» sözü insanların əxlaq və davranışını, təhsil dərəcəsini, özünü apara bilmək qabiliyyətini, bəlağətlə nitq söyləmək kimi mə’nəvi sahələri ifadə etməklə yanaşı, həm də şəhər və kənd salmaq, onları idarə edə bilmək, ticarət qaydalarına riayət etmək, qul və kəniz seçə bilmək, başqa insanlarla və xalqlarla müəyyən əlaqələr yaratmaq, bu əlaqələri qoruyub saxlamaq bacarığını da ifadə edirdi.

Avropada «culture» terminini ilk dəfə Şotlandiya filosofu A.Fergüson cəmiyyətin inkişafının vəhşilik və barbarlıqdan sonrakı dövrünü bildirmək üçün işlətmişdir. F.Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində bu bölgünü şərti və müvəqqəti qəbul etmişdir. O,L.Morqana əsaslanaraq yazırdıki, mədəniyyət ictimai inkişafın elə bir pilləsidir ki, burada əmək bölgüsü, bu əmək bölgüsündən ayrı-ayrı şəxslər arasında meydana gələn mübadilə və bu proseslərin hər ikisini birləşdirən əmtəə istehsalı tam inkişaf edir və bütün əvvəlki cəmiyyətdə çevriliş yaradır. Mədəniyyəti cəmiyyətin

xüsusi inkişaf tipi kimi müəyyən edən F.Engels onun əsas xüsusiyyətlərinidə müəyyənləşdirirdi:

XVIII əsrin fransız maarifçiləri mədəniyyət deyərkən insanların tarixi inkişafında onların zəkasının təkmilləşməsini nəzərdə tuturdular. Onlara görə, zəka qarşısında duran əsas vəzifə insanlar üçün xoşbəxt həyatın təmin olunması və ədalətə əsaslanan bir ictimai quruluşun yaradılması idi. Bununla bərabər bu maarifçi mütəfəkkirlər (məsələn,J. J.Russo) insanın əxlaqını pozduğuna görə elmi-texniki tərəqqini və sivilizasiyanın bə'zi cəhətlərini kəskin tənqid atəşinə tuturdular. ABŞ-da ilk maarifçilər məsələn; B.Franklin, T.Cefferson, T.Peyn, Hamilton vəbaşqaları isə torpaq və ticarət aristokratiyasının mədəniyyətini pisləyən həcvlər yaratmışlar. Həm Avropada, həm də ABŞ-da və Rusiyada maarifçilər mövcud feodal-patriarxal qaydaları, monarxiya üsul-idarəsini, dini və mövcud nigah qanunlarını ağılsız cəmiyyətin məhsulu hesab edərək onlara qarşı amansız olmuşlar. Onlar mədəniyyət anlayışını ən çox mənəvi həyat sahələrinə aid edir, onu insanların ruhani aləmində; əxlaq (İ.Kant), estetika (F.Şiller), fəlsəfə (H.Hegel) sahəsində axtarır və onu insanın «mənəvi azadlıq»sahəsi kimi izah edirdilər. Müasir elmi–texniki tərəqqi, sosial-etnik ziddiyyətlər və qlobal problemlər, onların həlli yolları bir sıra Qərb alimlərini mədəniyyətin ümumbəşəri səciyyəsini inkar etməyə və xüsusən, əlahiddə milli mədəniyyətilərin mövcudluğu haqqında müxtəlif nəzəriyyələr yaratmağa sövq edir. Müasir şəraitdə müxtəlif «anti mədəniyyət» nəzəriyyələri də radikal əhval-ruhiyyəli ziyalılar və gənclər arasında geniş yayılmışdır. Onlar, əsasən, «mədəniyyət azadlığı» bayrağı altında çıxış edir, bir qisim etik normaların gözlənilməsinivacib saymırlar.Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevın azərbaycanşılıqla bağlı multikultural dəyərləri önə çəkməsi müasir dövrdə çox böyük tarixi əhəmiyyətə malikdir. "Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il (2016-cı il- E.Ş.) Azərbaycanda "Multikulturalizm ili" elan olunur."[1]

"Multikulturalizmin fəlsəfəsi mədəniyyətdə, insanların şüurunda rasionallığın təsdiqinə can atmalı, bu anlayışı müxtəlif mədəniyyətlərdə müqayisə edib genişləndirməklə humanizm ideallarını təsdiq etməlidir. Buna görə də fəlsəfə müxtəlif təcrübələrin məlumatlarını özündə birləşdirən metadil kimi çıxış etməlidir"[2].

Hər bir xalqın mövcudluğu onun mədəniyyəti ilə qırılmaz surətdə əlaqədardır. Mədəniyyətin inkişafı köhnə milli–mə'nəvi irsin ən yaxşı cəhətlərinin mənimsənilməsi yolu ilə gedir. Bir sıra alimlər isə mədəniyyəti iki yerə: ümumbəşəri və milli mədəniyyətə bölərək birincinin milli mədəniyyətlə əlaqəsini birtərəfli izah edirlər. Onlarsivilizasiya tarixindən və millətlərin həyatından çoxlu misallar gətirərək sübut etməyə çalışıplarki, dünya sivilizasiyasına yiyələnmək nəticəsində xalqlar öz milli mədəniyyətlərindən məhrum olur və bunun nətəcəsində milli mədəniyyətləri hələ sivilizasiya tərəfindən dağıdılmamış xalqlar qarşısında asanlıqla məğlubiyyətə uğrayırlar.
Mədəniyyət – cəmiyyətin inkişafının müəyyən səviyyəsi ilə bağlı olub tarixi dövrlərin, ictimai - iqtisadi formasiyaların, millətlərin, xalqların maddi və mə'nəvi tərəqqisini səciyyələndirmək üçün işlədilir.

**MƏDƏNİYYƏTİN MAHİYYƏTİ, NÖVLƏRİ VƏ XARAKTERİK**

**XÜSUSİYYƏTLƏRİ**

Mədəniyyət bəşəriyyətin tarixən topladığı maddi və mə'nəvi sərvətlərin məcmusu, habelə bu sərvətlərin yaradılması, onlardan isətifadə edilməsi və gələcək nəsillərə çatdırılması yollarından ibarətdir. Bu anlayışa xalq kütlələrinin yaradıcılıq fəaliyyəti, təbiəti və cəmiyyəti dəyişdirmək imkanları da daxildir.

Beləliklə, mədəniyyət çox mürəkkəb ictimai hadisədir. O, insanlar tərəfindən yaradılmış sərvətlərlə bərabər bu sərvətləri yaradanın fəaliyyəti ilə birlikdə mövcuddur. Odur ki, mədəniyyət deyərkən insan fəaliyyətinin üsulları , nəticələri və yaratdığı sərvətlərin ümumi toplusu nəzərdə tutulur. Mədəniyyətin iki növü vardır: maddi mədəniyyət. mə'nəvi mədəniyyət. İnsan cəmiyyətinin təbiətə münasibətinin isə 4 dövrü müəyyən edilmişdir:

**1-ci dövr**: şüurlu insanın (Homo - sapiensin) yaranmasından başlayır, əkinçilik və maldarlığın meydana gəlməsinə qədər davam edir. Bu, insanların ovçuluqla, balıqçılıqla, yığıcılıqla məşğul olduğu dövrdür. Həmin dövrün səciyyəvi cəhəti təbiətlə vəhdətdə olmaqdır. İnsan bu zaman özünü təbiətdən ayırmır, amma təbiəti dəyişdirməyə, ona tə'sir göstərməyə başlayır.

**2-ci dövr**: bu zaman əkinçilik və maldarlıq istehsalın həlledici sahələrinə çevrilir. Qalan fəaliyyət növləri onlardan asılı vəziyyətə düşür. Bu dövrdən e'tibarən insan təbiətə fəal müdaxilə etməyə və ona ciddi tə'sir göstərməyə başlayır, amma hələ yenə də ona tabedir, ondan çox asılıdır. Bu dövrdə itehsal tamamilə təbii amillərdən asılıdır. Bu dövrün sonlarına yaxın insanın təbiətdən ayrılması prosesi onun təbiətə qarşı qoyulması formasını alır.

**3-cü dövr**: XVIII əsrdə İngiltərədə baş vermiş sənaye inqilabı cəmiyyətlə təbiət arasındakı münasibətlərdə yeni mərhələnin başlanğıcını qoydu. İnsanla təbiət arasında ziddiyyətlər dərinləşir, insan elmin və texnikanın gücündən geniş istifadə edərək təbiətə dağıdıcı tə'sir göstərməyə başlayır.

**4-cü dövr**: XX əsrin ortalarından başlayaraq elmin və texnikanın nailiyyətlərinin birləşdirilməsi nəticəsində yaranan elmi–texniki inqilab (ETİ) insan-təbiət münasibətlərindəki ziddiyyətləri daha da dərinləşdirir və böhranlı vəziyyətin yaranmasına səbəb olur. İnsan təbiəti ram edərək onun tam ağasına çevrilməyə başlayır. Lakin bu cəhdlər öz mənfi nəticələrini verir.

Mədəniyyətin bir sıra xüsusiyyətləri vardır:

1. Mədəniyyət formaca milli, məzmunca beynəlmiləl olmaqla ümumbəşəri xarakter daşıyır. Yə'ni hər bir milli mədəniyyət qazandığı uğurlarla eyni zamanda dünya mədəniyyətini zənginləşdirmiş olur.
2. Mədəniyyətin fərqləndirici xüsusiyyətlərindən biri də onun humanist xarakter daşımasıdır. İnsan mədəniyyət və onun problemlərinin mərkəzində dayanan əsas fiqurdur.
3. Mədəniyyətin digər xüsusiyyəti onun ekspansiv xarakter daşımasıdır. Dünya xalqlarının və millətlərinin tarixi təcrübəsi göstərir ki, milli mədəniyyəti qədim və yüksək olan xalq başqa bir xalq tərəfindən istilaya mə'ruz qaldıqda onun mədəniyyəti nəinki assimilyasiyaya uğramır, əksinə, əsarət altına alan xalqa hardasa öz mədəniyyətini qəbul etdirir.
4. Mədəniyyətin mühüm xüsusiyyətlərindən biri də onun tarixən keçici xarakter daşımasıdır. Müəyyən insan birliklərinə xas olan mədəniyyət ünsürləri dəyişilməz qalmır, bu və ya digər obyektiv və subyektiv amillərin tə'siri altında deformasiyaya uğrayır, dəyişilir, hətta bə'zən yox olur.

5. Mədəniyyətin xüsusiyyətlərindən danışarkən, onun varislik cəhətlərinə malik olması da qeyd olunmalıdır. Hər bir mədəniyyət özündən əvvəl yaranmış mədəniyyət növlərindən bəhrələnir, onun ən yaxşı nümunələrini gələcək nəsillərə çatdırır.
6. Mədəniyyətin xüsusiyyətlərindən bir də onun diskursivliyi və habelə diskret olması, yə'ni fasiləsiz şəkildə inkişaf etməsi və bu fasiləsizlikdə müəyyən bir fasilə, müəyyən bir mərhələ olmasıdır. Hal-hazırda mövcud olan və daim dəyişikliyə uğrayan müxtəlif mədəniyyətlər buna nümunədir.
7. Bütün bunlarla yanaşı, mədəniyyətin sinkretizmini, yə'ni bölünməzliyini, vəhdətini də qeyd etmək lazımdır. Dünyada bütün mədəniyyətlər əslində eyni bir cəhətə, bir-birinə yaxınlaşmaq və bir-birini zənginləşdirmək xüsusiyyətinə malikdirlər.
8. Nəhayət,ictimai-siyasi fikir tarixində elə nəzəriyyələr də olmuşdur ki, onlar mədəniyyətin mühüm bir xüsusiyyəti kimi, onun sinfi xarakter daşıdığını birinci dərəcəli məsələ kimi irəli sürmüşlər. Məsələn, marksizmə görə, antaqonist siniflərə bölünmüş cəmiyyətlərdə mə'nəvi mədəniyyət öz məzmunu e'tibarilə vahid olmur.

**SİVİLİZASİYA VƏ MƏDƏNİYYƏT, ONLARIN QARŞILIQLI ƏLAQƏSİ**

Sosial, siyasi vəətrafdakı təbiətdən daha yaxşı istifadə etməklə daha yaxşı yaşamaq yolları sivilizasiya adlandırıla bilər, onlar mədəni bir fərd olmaq üçün kifayət deyil.İnsanı yalnız intellektinin vəşüurunun daha dərin səviyyəsində «mədəni» adlandırmaq olar.Bu baxımdan, daha dərin bir mənada mədəniyyət insan ruhuna nüfuz etmış olsaydı, müasir dünya çoxlu sayda kiçik müharibələrdən əlavə, daha iki dünya müharibəsinə şahidlik etməzdi. Lakin təkzibolunmaz budur ki, " çoxsaylı tədqiqatçıların bu fikri ilə razılaşmaq lazımdır ki, mədəniyyət sırf sosial hadisə olub, insanların həyat fəaliyyəti ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, cəmiyyətdə mədəni və sosiallığın birliyi yalnız onun aşağı pilləsində mövcud olmuşdur." [3]

Sivilizasiya–latın dilindəki «sivilis» sözündən olub «vətəndaş», «mülki» mə'nalarını ifadə edir. Sivilizasiya mədəniyyətin sinonimi kimi işlədilir. Marksist ədəbiyyatdaisəəsasən maddi mədəniyyət kimi nəzərdən keçirilir. Burada sivilizasiya bəşəriyyətin inkişafında ibtidai cəmiyyətdən sonrakı dövrü göstərmək üçün işlədilir. «Sivilizasiya» anlayışı XVIII əsrdə meydana gəlib, ilk anlar «mədəniyyət» məfhumunu ifadə edirdi. XIX əsrdə isə sivilizasiya deyərkən kapitalizmi başa düşürdülər. Lakin bu, o zaman sivilizasiyanın yeganə anlayışı deyildi. Qərb alimlərindən bir çoxu sivilizasiyanın qlobal xarakterini inkar edərək, onun məhdud milli, regional cəhətlərini şişirtmişlər. O.Şpenqler isə mədəniyyəti sivilizasiyaya qarşı qoyaraq ikincini cəmiyyətin inkişafında son mərhələ sayırdı. Bə'zən də üstüörtülü şəkildə olsa da, mədəniyyət tamam inkar edilirdi. Nitsşeyə görə isə hər hansı bir mədəniyyət son anda bəşər cəmiyyətini dağıtmağa doğru aparır. İngilis alimi Ç. Sin tərəfindən əsası qoyulmuş «iki mədəniyyət» konsepsiyasına görə müasir kapitalizm cəmiyyətində şəxsiyyətin özgələşməsi prosesi mədəniyyətin müxtəlif nihilist formalarını meydana gətirdiyindən adamlar onu cəfəngiyyat adlandırıb rədd edirlər. Hər bir millət öz həyatında doğuluş, inkişaf və qocalmadan ibarət olan eyni mərhələləri keçirlər.

Mədəniyyətin üç əsas tərkib hissəsi vardır. Onlardan biri ictimai şüurda, ikincisi insanların fəaliyyət və davranışlarında, üçüncüsü isə onların fəaliyyətinin maddi və mə'nəvi nəticələrində mövcuddur.Mədəniyyətin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. Sözün həqiqi mənasında mədəniyyətsiz xalqlar yoxdur və olmamışdır. Hər bir xalq

özünəməxsus mədəniyyətə malik olur. Müasir qərb kulturologiyasında xalqları «təbii» (yəni sivilizasiyanın toxunmadığı, başqa sözlə desək, poza bilmədiyi) və «mədəni» hissələrə bölünməsi qəbul olunmuşdur. Bundan başqa, müasir qərb mədəniyyətşünaslığında «az mədəniyyətli xalqlar» terminindən də geniş istifadə olunur. Belə bölgü çox zaman irqçilik və şovinizm mövqelərindən edilir və müəyyən siyasi məqsədlər güdür.

Şərq və Qərb sivilizasiyaları min illər boyu bir-birini zənginləşdirmişdi. Vaxtilə Kant deyirdi ki, insan əqlini maraqlandıran məsələlər nə bir əsrin, nə də bir millətin həll edə biləcəyi məsələlər deyil, onlar bəşəriyyətin vəzifəsidir. C. Nehru isə özünün «Dünya tarixinə nəzər» kitabında yazır ki, dünya sivilizasiyasının inkişafında Asiyanın rolunu danmaq ən azı insafsızlıqdır. Çünki Avropa millətlərinin çoxu öz mənşələrini Asiya xalqlarından götürmüş, onların hesabına mədəniləşmişlər. Orta Əsrlərdə İslam Şərqində mədəniyyətin Avropaya nisbətən irəlidə olması və ona güclü tə'sir göstərməsi faktı bir sıra Avropa mütəfəkkirlərinin, o cümlədən S.Simonun, Y.Fixtenin, Ş.Monteskyenin, T.Kampanellanın, K. Marksın və F.Engelsin ayrı-ayrı əsərlərində də göstərilmişdir. Sivilizasiyanın tarixi təsnifatını verərkən qeyd etmək olar ki, onun: a) lokal; b) regional; v) ümumdünya kimi tarixi tipləri vardır.

Mədəniyyətlə əlaqədar cəmiyyətin inkişafının hər bir mərhələsi üçün zəruri olan universal xarakteristikalar «sivilizasiya» istilahı ilə ifadə olunur. Mədəniyyətlə sivilizasiyanın qarşılıqlı əlaqələrindən danışarkən demək olar ki, mədəniyyət cəmiyyətin toplamış olduğu təcrübənin, onun qorunmasının və nəsillərə ötürülməsinin proqramıdır. Bu baxımdan sivilizasiya cəmiyyətin tarixi inkişafında fasilədirsə, mədəniyyət fasiləsizlikdir.Sivilizasiya tərəqqinin ali nümunələrinə uyğun səviyyə və nəticələrini göstərirsə, mədəniyyət daha çox bu nailiyyətlərin mənimsənilməsi mexanizmini, üsul və metodlarını ifadə edir.

Bir çox tədqiqatçılar mədəniyyətlə sivilizasiyanı eyniləşdirməyə, digərləri isə əksinə, onları qarşı-qarşıya qoymağa çalışırlar. Bu ikincilər mədəniyyət deyərkən mə'nəvi mədəniyyəti, sivilizasiya deyərkən isə maddi mədəniyyəti nəzərdə tuturlar. Əslində isə mədəniyyət və sivilizasiya biri-digərinə nə qədər yaxın anlayışlar olsalar da, onları fərqləndirən cəhətlər də vardır.

Əvvəla, onu demək lazımdır ki, mədəniyyət daha geniş anlayış olub sivilizasiyanıda özündə birləşdirir; ikincisi, sivilizasiya məfhumu çox zaman cəmiyyətin müəyyən bir tarixi inkişaf pil-lələrinə aid edilir; üçüncüsü, «milli sivilizasiya» anlayışı millilikdəndaha çox regional sahələri, bir neçə dövlətin sərhədləri daxilində olan ərazilərdəki mədəniyyətin səviyyəsini göstərdiyi halda, milli mədəniyyət hər bir millətə xas olan xarakterik xüsusiyyətləri əks etdirir; dördüncüsü, müəyyən bir sivilizasiya daha tez parlayıb sönə bildiyi halda, mədəniyyət nisbətən sabit və uzunömürlü olur, çox yaşayır və sonrakı nəsillər tərəfindən daha tez qavranılır; beşincisi, mədəniyyətin bir neçə qolu, növü, şaxəsi olduğu halda, sivilizasiyada bunu müşahidə etmək mümkün deyildir. Məsələn, yuxarıda qeyd edilən siyasi mədəniyyət, məişət mədəniyyəti, nitq mədəniyyəti, davranış mədəniyyəti və s. Bu kimi anlayışlar olduğu halda, siyasi sivilizasiya, məişət sivilizasiyası, nitq sivilizasiyası, davranış sivilizasiyası və s. ifadələri işlətmək mümkün deyil.

## NƏTİCƏ

Mədəniyyət və sivilizasiyanın yuxarıda adları çəkilən bu fərqli cəhətləri ilə yanaşı, bir sıra oxşar və hətta eyniyyət təşkil edən tərəfləri də vardır. Məhz bu xüsusiyyətlər onları birlikdə öyrənməyi tələb edir.

Mədəniyyət, eləcə də sivilizasiya eyni və yaxud bir-birinə yaxın olan funksiyaları yerinə yetirirlər:

1. Qnoseoloji funksiya, yəni dərketmə, idrak funksiyası;
2. Tarixi varislik, sosial təcrübənin sonrakı nəsillərə ötürülməsi funksiyası. Buna fəlsəfi ədəbiyyatda bəzən informasiya funksiyası da deyilir;
3. Kommunikativ ünsiyyət funksiyası;
4. İdeoloji funksiya;
5. Tənzimləyici, normativ funksiya;
6. Humanist funksiya;

Mədəniyyət və sivilizasiya həm ümumbəşəri, həm də milli və regional formalarda olur; daha doğrusu, milli formalarda yaranan mədəniyyət və onun nəticələri son anda bütün bəşəriyyətə məxsus olur.

Sivilizasiya və mədəniyyətin tarixi inkişaf formaları cəmiyyətin tarixi inkişaf mərhələlərinə əsasən uyğun gəlir.

Müasir dünyada baş verən köklü iqtisadi-mədəni, sosial-siyasi dəyişikliklər Şərqdəki sivilizasiya mərkəzlərinin çiçəklənməsinə səbəb olmuşdur. Bu, özlərini köhnə sivilizasiya mərkəzlərinin nümayəndələri hesab edən Avropa mərkəzçilərini razı salmadığından onlar Şərq xalqlarını, onların yaratdıqları zəngin milli mədəniyyət nümunələrini inkar etməyə və saxtalaşdırmağa çalışır, mədəniyyət tarixində bu xalqların, xüsusən İslam Şərqi xalqlarının və eləcə də azərbaycanlıların dünya mədəniyyətinin inkişafındakı rolunu kiçiltməyə və qaralamağa çalışırlar. Özlərinə «avropasentirizm evində» rahat yer düzəltməyə cəhd edən erməni ideoloqları da elə ilk illərdən başlayaraq, bu axına qoşulmuş, Azərbaycan xalqının mədəniyyət və sivilizasiya tarixini inkar etmək işinə girişmişlər. Mədəniyyət və sivilizasiya sahəsində Şərq-Qərb və yaxud Qərb-Şərq problemini islam-xristian və ya xristian-islam qarşıdurması səviyyəsinə qaldırmağa çalışan belə ideoloqlar Qərb üçün İslam xalqlarının və onların mədəniyyətlərinin timsalında «düşmən obrazı» axtarışlarını davam etdirir, hətta bəzi hallarda ona nail də olurlar.

**Ədəbiyyat:**


1. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. http://www.aztv.az/readnews.php?lang=az&id=22989T
2. E. Nəcəfov: "Müxtəlif Ölkələrdə Multikulturalizm Siyasətinin Müqayisəli Təhlili", Bakı, Slavyan Universiteti, (http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258)
3. Mədəniyyət və sivilizasiya, 22 may 2012. http://kayzen.az/blog/4810/mədəniyyət-və sivilizasiya.html



**Эльдар Шахгельдиев**


**Цивилизация и культура, их взамосвязь**

**Резюме**


В статье исследуются различные подходы относительно истории становления понятийного аппарата культуры, анализируются концепции взаимосвязи культуры и цивилизации. Автор отмечает, что культура и цивилизация тесно связаны с общечеловеческой деятельностью, которая их объединяет. Но в то же время отмечается, что они различаются по своей форме,

функции и глобальности. В результате были обобщены положения основных разделов.
**Ключевые слова**: культура, сущность культуры, материальная культура, духовная культура, культурные особенности, цивилизация, культура и цивилизация

**Eldar Shahgaldiyev**
**Civilization and culture and their interrelation**

**Summary**

The article deals with the notional apparatus of culture and its hitory, types and spesific features, and as well as with various approaches of its interrelation with civilization. The author notes that, despite the existing diffrences in terms of their forms, functions and globality, there is still the common feature for both of these – human activity that brings them together causing a close relation between them. The ideas which are discussed in the main part of the article are generalized in the part of conclusion.
**Keywords**: Culture, essence of culture, material culture, spiritual culture, cultural features, civilization, culture and civilization

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.04.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.04. 2018Məqalənin çapa qəbul olunma tarixi: 30.05.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfədoktoru, dosent Xaləddin Sofiyev**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**